Səh. 3 Mədəniyyət, yoxsa mədə-niyyət? – Binəli İslamoğlu

Səh. 5 Kişinin kimliyini təsdiqləyən bəlgə – Afiq Muxtaroğlu

Səh. 6 İbtidai sinif şagirdlərinin dərsə olan maraqlarını artırmağın yolları – Sayalı İsmayılova

Səh. 6 Aldığımız çiçəkləri boyayan öz hüquqları üçün mübarizə aparan qadınların qanlarıdır – Hürnisə Əhmədova

Səh. 2 Vəzifəli işsizlər – Azər Musaoğlu

Səh. 4 2025-2026-CI TƏDRİS İLİ ÜÇÜN ŞAGİRDLƏRİN BİRİNCİ SİNFƏ QEYDİYYATI BAŞLAYIB

Səh. 7 Ağa Məhəmməd şah Qacarın Tiflis şəhərinə hücumu – Aleksandre Orbeliani

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MART 2025-Cİ İL
№ 05 (222)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTANIN AZƏRBAYCANDİLLİ MƏKTƏBLƏRİNDƏ 21 MART İSTİRAHƏT GÜNÜ OLACAQ



Gürcüstanda azərbaycandilli məktəb və sektorların müəllim və şagirdləri Novruz bayramı ilə əlaqədar martın 21-də istirahət hüququ əldə edəcəklər. Bu barədə Gürcüstanın Təhsil, Elm və Gənclər Nazirliyi məlumat yayıb.

Məlumata görə, bayramın qeyd olunduğu bələdiyyələrdə fəaliyyət göstərən dövlət və özəl məktəblər müvafiq müraciət əsasında martın 21-də istirahət edə bilərlər.

**Qeyd edək ki, 2009-cu il sentyabrın 30-da Novruz bayramı UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2010-cu il fevralın 23-də isə BMT Baş Assambleyasının 64-cü sessiyasında martın 21-i “Beynəlxalq Novruz Günü” elan olunub.**

## MİLLİ MƏCLİSİN SƏDRİ KOBAXİDZE İLƏ GÖRÜŞÜB



Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova martın 11-də Tbilisidə Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb. Məlumatı Baş nazirin mətbuat xidməti yayıb.

Bildirilib ki, tərəflər Gürcüstan və Azərbaycan arasında strateji tərəfdaşlıq, birgə regional layihələr, iqtisadi əməkdaşlıq məsələlərini müzakirə ediblər.

Görüşdə hər iki ölkənin Baş nazirlərinin həmsədrliyi ilə cari ilin yanvarında keçirilmiş Gürcüstan və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 10-cu iclasının səmərəliliyi qeyd olunub və əməkdaşlığın dərinləşməsində yüksək səviyyəli səfərlərin əhəmiyyəti vurğulanıb.

Tərəflər Orta Dəhlizin səmərəli fəaliyyətinin təşviqini də müzakirə ediblər.

Görüş zamanı Cənubi Qafqaz regionunda sülhün və sabitliyin vacibliyi vurğulanıb.

Hökumət başçısı qeyd edib ki, Gürcüstan gələcəkdə də regionda sülhün və rifahın təmin edilməsinə töhfə verməyə hazırdır.

## QHT-LƏRİN İCTİMAİ QƏRARLARIN QƏBULUNDA İŞTİRAKI MƏCBURİ OLMAYACAQ



Gürcüstan parlamenti QHT-lərin qərarların qəbulunda iştirakının məcburi olmasını ləğv edən “Parlamentin reqlamentinə dəyişiklik edilməsi haqqında” qanun layihəsini birinci oxunuşda qəbul edib.

Yeni layihəyə əsasən, ictimai qərarların qəbulunda qeyri-hökumət təşkilatlarının (QHT) məcburi iştirakı ləğv olunur.

Qanun layihəsini təqdim edən komitə sədri David Matikaşvilinin sözlərinə görə, Gürcüstandakı QHT-lərin əksəriyyəti xaricdən maliyyələşir və bəzən milli maraqlara deyil, donor ölkələrin siyasi məqsədlərinə xidmət edir. O, ABŞ-da ortaya çıxan “USAID qalmaqalı”nı misal çəkərək, bəzi xarici fondların müxtəlif ölkələrdə hökumət əleyhinə aksiyaları maliyyələşdirdiyini bildirib.

Dəyişikliklərə əsasən, qeyri-hökumət təşkilatları müzakirələrdə iştirak edə biləcəklər, lakin onların qərarvermə prosesində məcburi iştirakı tələb olunmayacaq. Bundan əlavə, qanun layihəsi Mərkəzi Seçki Komissiyası (MSK) üzvlərinin seçilmə prosedurunu da yenidən müəyyənləşdirir. Yeni qaydaya görə, MSK üzvləri parlamentin üçdə iki səs çoxluğu ilə seçiləcək.

Qanun layihəsi birinci oxunuşda 84 deputatın dəstəyi ilə qəbul edilib.

## SAAKAŞVİLİ 9 İL HƏBS CƏZASINA MƏHKUM EDİLDİ



Tbilisi şəhər məhkəməsi Gürcüstanın üçüncü prezidenti Mixail Saakaşvilini 3,2 milyon dollar dövlət vəsaitini israf etməkdə təqsirli bilərək onu doqquz il həbs cəzasına məhkum edib.

Hökmü hakim Badri Koçlamazaşvili oxuyub. Məhkəmənin qərarına əsasən, Saakaşvilinin keçmiş mühafizə rəisi Teymuraz Canaşiya da təqsirli bilinib, lakin o, yalnız 300 min lari (100 min dollar) məbləğində cərimə ilə kifayətlənib.

Təqsirləndirilən şəxslər məhkəmə iclasında iştirak etməyiblər. Saakaşvili və Canaşiya onlara qarşı irəli sürülən ittihamları qəbul etmədikləri və günahsız olduqları haqqında bəyanat veriblər.



# VƏZİFƏLİ İŞSİZLƏR

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Fikir vermisinizmi, bizimkilərə vəzifə veriləndə işləmirlər. Bizimkilərə vəzifəni işləməmələri üçün verirlər. Bir də baxırsan, işguzar, bacarıqlı bir nəfərə vəzifə verirlər, fərqi yoxdur, böyük, ya kiçik vəzifə olsun, adam vəzifəyə təyin olunandan sonra fəaliyyətsizliyə başlayır, işləmir; vəzifəyə təyin olunmamışdan qabaq gördüyü işi-gücü də yadırğayır, əlini ağdan-qaraya vurmur, əksinə, iş görənlərə, işləmək istəyənlərə də mane olmağa, əngəl törətməyə başlayır. Bizimkiləri vəzifəyə ona görə təyin edirlər ki, nə özü işləsin, nə də işləyənləri işləməyə qoysun.

Məsələn, bizdə teatra yeni bədii rəhbər təyin edirlər ki, iş görən, bütün tamaşalarda iştirak edən, məşqlərə vaxtında gələn, öz ana dilini bilən, öz ədəbiyyatından, mədəniyyətindən xəbəri olan, canla-başla işləmək istəyən aktyorları işdən azad edib, əvəzində teatra kefi istəyəndə gəlib-gedən, öz ana dilini bilmədiyinə görə öz ana dilindəki pyesləri əzbərləyib səhnəyə çıxan, öz ədəbiyyatından, mədəniyyətindən xəbəri "tik-tok" məlumatları səviyyəsində olan, canla-başla deyil, yalnız maaşla işləmək istəyən həvəskar aktyorları işə təyin edir. Yəni iş görməmək üçün yeni "fəaliyyətə" başlayır.

Məsələn, bizdə kimsə məktəbə direktor təyin olunanda başlayır özünü qənaət üzrə müfəttiş kimi aparmağa. Qışın oğlan çağında qənaət etmək üçün istilik sistemini söndürür, suya qənaət elmək üçün tualetin qapısını qıfıllayır və sair. Yəni işləmək əvəzinə başlayır işləmək istəyənlərə, oxumaq istəyənlərə mane olmağa. Qənaət edə-edə özünü ağalarına yaxşı oğlan kimi göstərmək istədiyi halda, məktəbin müəllimlərini, şagirdlərini soyuqdan qırır. Bəlaləri məktəbin qırıq-sökük yerləri, çatışmazlıqları haqqında məlumat vermir. Məlumat versə iş görmüş olar axı. Onun vəzifəsi isə iş görməməkdən ibarət olmalıdır.

Məsələn, bizdə aktiv, bacarıqlı, savadlı bir gəncə deputatlıqdan-zaddan vəzifə verirlər, həmin gənc bir ayın içində qocalır, passiv, bacarıqsız, savadsız bir partiyabaza çevrilir. Nə özü iş görür, nə də imkan verir başqaları iş görsün. İş görmək istəyənləri şərləyir, birinə xarici agent adı verir, digərini vətən xaini çıxarır, bir başqasına vergi kəsir, o birinə elə cərimə yazdırır ki, yazığın yeddi arxa dönəni də yığılsa ödəyə bilmir və beləliklə də işləmək istəyənləri işdən soyudur, əlini-ayağını bağlayır, çörək sınağına çəkir; işləmək üçün yalnız və yalnız onun bığının altından keçməli olduğunu qandırır, bu məmləkətdə yeganə və ən böyük işverənin o olduğunu başa salır və əgər işləmək istəyirsənsə sənin də mütləq onun verdiyi işdə fəaliyyət göstərərək karyera qura, karyerada işverənliyə qədər yüksəlib ona-buna iş verə biləcəyini izah edir.

Nə isə... Misalları uzatmaq da olar. Uzatsaq da, uzatmasaq da mahiyyət eynidir: hansı vəzifə olursa olsun, bizimkilərə vəzifə veriləndə işləmirlər və ya bizimkilərə vəzifəni işləməmələri (sözün həqiqi mənasında) üçün verirlər. Bir də, bizdə vəzifəli var ona vəzifə iş görməməsi üçün, iş görənlərin də qarşısını almaq, manеə olmaq üçün verilir, tapşırılır yəni. Vəzifəli də var könüllü olaraq işləyənlərin əlinə-ayağına dolaşır, mane olur, ört-basdır edir, qənaət edir, yuxarıların başını ağrıtmır, tələb etmir, hər şeyin yaxşı, gözəl olduğunu deyir, heç bir problemin olmadığından dəm vurur – təki ağalarının gözünə yaxşı oğlan kimi görünsün, təki vəzifəsinə bir xələl dəyməsin – yuxarıda çəkdiyim misaldakı məktəb direktoru kimi...

Yəni belə qənaətə gəlmək olar ki, bizdə vəzifə istəyirsənsə, əvvəlcə iş görməməyi, kabinetdə illərlə fəaliyyətsiz oturmağı, telefonda oyun oynamağı, ver yeyim, ört yatım, gözlə canım çıxmasınla məşğul olmağı, iş görmək istəyənlərə mane olmağı, şərləməyi, cərimələməyi, xarici agent adı qoymağı, vətən xaini çıxarmağı mütləq bacarmalısan. Məşhur filmdə deyildiyi kimi yəni: işləyən dişləməz.

Deyirəm, Allah bizimkilərə vəzifə verməsin, qoy başlarını salıb öz halal-hümmət işlərində-güclərində olsunlar. Yoxsa belə getsə vəzifəli işsizlərin sayı artacaq ki, bu da bir ayrı dərddir.

# ZAHİRİ GÖZƏLLİKDƏN DAXİLİ KAMİLLİYƏ



Mədəniyyət insanın mənəvi dünyasının aynasıdır. O, təkcə zahiri görkəm və biliklə ölçülmür, insanın davranışı, ünsiyyət tərzi, dünyagörüşü və əxlaqi keyfiyyətləri də mədəniyyətin ayrılmaz hissəsidir. Cəmiyyətin sağlam və səmimi münasibətlərə əsaslanması üçün hər bir fərdin mədəni davranışı mühüm rol oynayır.

Mədəni insan yalnız bilikli və savadlı olmaqla kifayətlənmir. O, öz ətrafındakı insanlara hörmətlə yanaşan, böyüyə ehtiram, kiçiyə qayğı göstərən, nəzakətli və ədəb qaydalarını bilən şəxsdir. Mədəni insanın davranışı onun tərbiyəsindən, ailədən aldığı dəyərlərdən və həyat təcrübəsindən qaynaqlanır.

Məsələn, gündəlik həyatda sadə görünən nüanslar – birinə təşəkkür etmək, üzrxahlıq etmək, ehtiyacı olan insana kömək əlini uzatmaq insanın daxili aləminin güzgüsüdür. Bu keyfiyyətlər insanın daxili dünyasını zənginləşdirərək onu cəmiyyət tərəfindən hörmət edilən şəxsiyyətə çevirir. Unutmayaq ki, insanı həqiqətən ucaldan onun görünməyən yaxşılıqları, danışılmayan fədakarlıqları və heç kimə göstərmədən etdiyi xeyirxah əməlləridir.

Uşaqlarımızın, həyat yoldaşımızın, dostlarımızın və ümumiyyətlə, ətrafımızdakı insanların ədəbli, nizam-intizamlı və xoş xasiyyətli olmasını istəyirik. Bu keyfiyyətlərin insanlarda necə formalaşdığını, ədəbli insanın kim olduğunu və əxlaqın mahiyyətini dərk etmək vacibdir.

Fikrimcə, cəmiyyətdə əsl insan olmaq üçün nə aristokrat ailədə doğulmaq, nə də böyük sərvətə sahib olmaq vacibdir. Həqiqi insan olmaq daha çox daxili zənginlik, geniş dünyagörüşü və yüksək mənəvi dəyərlərlə müəyyən edilir. İnsan özü-özünü tərbiyə edərək, bilik və mədəniyyətini inkişaf etdirərək əsl insan ola bilər.

Əsl insan olmaq ilk növbədə mədəniyyətə sahib olmaq deməkdir. Mədəni insan olmaq yalnız savadlı və ya diplomlu şəxs olmaq demək deyil. Mədəni insan geniş dünyagörüşünə malik olan, fikirlərini səlis ifadə edə bilən, istənilən mövzuda müzakirə aparmağı bacaran və eyni zamanda insanlarla nəzakətli olan şəxsdir. O, biliklərini gözə soxmaq, özünü yuxarıdan aparmaq məqsədilə deyil, qarşısındakını anlamaq və faydalı fikir bildirmək üçün danışar. Lakin mədəniyyət yalnız bilik və səlis danışıqla da ölçülmür. Əsl insan olmaq üçün əxlaqi keyfiyyətlər və yüksək ədəb-ərkan da zəruridir. Ədəbli insan öz davranışı ilə ətrafına müsbət təsir göstərir.

Xalq arasında "insanı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar" deyimi bu həqiqəti gözəl ifadə edir. Doğrudur, ilk baxışda insanın zahiri görkəmi diqqət çəkə bilər, lakin uzunmüddətli münasibətlərdə insanın ağlı, dünyagörüşü və davranışı əsas rol oynayır. Xarici görünüş yalnız ilkin təəssürat yarada bilər, amma insanın dəyəri onun daxili zənginliyində və mənəvi keyfiyyətlərində gizlidir.

Bəzən zahirən cəlbedici və gözəl geyinmiş insanlar öz davranışları ilə bu təsəvvürü alt-üst edirlər. Onlar insanların gördüklərinə həddindən artıq əhəmiyyət verərək, əslində vacib olan daxili keyfiyyətləri unudurlar. Halbuki insanın əsl dəyəri onun xeyirxah əməllərində və nəcib davranışlarında üzə çıxır. Xalqımızın "bəzən çox qəşəng, səliqəli geyinmiş bir adam ağzını açanda dindirməyinə peşman olarsan" deyimi bu gerçəkliyi tam təsdiqləyir. Gözəl görünüşün arxasında kobud və tərbiyəsiz davranış varsa, bu insanın cəmiyyətdə yer tapması mümkün deyil.

Əsl insan olmaq həm də xeyirxah olmaq deməkdir. Xeyirxahlıq insanın daxili aləminin zənginliyindən doğan ən ali xüsusiyyətlərdən biridir. Bir atalar sözündə deyildiyi kimi, "Yaxşılıq elə, dənizə at, balıq bilməsə də, Xaliq bilər". Xeyirxah insan etdiyi yaxşılıqları nümayiş etdirməz, bunu qarşılıq gözləmədən, səmimi niyyətlə edər.

Bütün bu xüsusiyyətlərin ən mühüm göstəricisi isə insanın nitqidir. Danışıq tərzi insanın tərbiyəsi, dünyagörüşü və mədəniyyət səviyyəsinin ən parlaq aynasıdır. Xoş rəftarla, nəzakətli və səlis danışmaq insanın hörmət qazanmasına şərait yaradır. Kobud və aqressiv ifadələr isə insanın nüfuzuna mənfi təsir göstərir. Ədəbli və mədəni insan nitqində hər zaman incə davranmağa, başqalarının hisslərini nəzərə almağa çalışar.

Yaxşı insan olmaq üçün var-dövlətə və ya yüksək mövqeyə sahib olmaq kifayət deyil. Əsl insan olmağın təməlində mənəvi zənginlik, xeyirxah ürək, gözəl əxlaq və ədəb dayanır. Bu dəyərlər insanı cəmiyyətdə hörmətə layiq edir və ona əsl şəxsiyyət kimi tanınmaq imkanı verir.

Həyatda uğur qazanmaq və sevilən insan olmaq üçün hər birimiz əvvəlcə daxili aləmimizi zənginləndirməli, əxlaq və ədəbə üstünlük verməliyik. Belə insanlar özləri ilə yanaşı, ətraflarını da gözəlləşdirir və cəmiyyətə müsbət təsir göstərirlər. Əsl insan olmaq zahiri gözəllikdən deyil, qəlbin və ruhun gözəlliyindən başlayır.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin 2-ci kurs tələbəsi*

# VARLIĞIN MÜBARƏK, QADIN!



Sən kimsən, qadın? Qədərin kədər doludur, sevincin bir ümmandır. Hər çətinliyə qatlanansan, qadın!

Keçmişimə boylanıram. Dinimizin müqəddəs elçisi Məhəmməd peyğəmbərin mənəvi dostu, dərddaşı, ilk anlayanı da sən oldun, qadın.

Dastanlara yaraşıq oldun, qəhrəmanlara dayaq oldun. O igidlərə də canından can verən sən olubsan, qadın! Nə Nüşabələrdən yazıram, nə Nigarlardan, elə Sara Xatun bəsdir qadın adıyla qürurlansın türk oğlu. Şeyx Şamili Şimal Qartalı kimi ucalara ucaldan, qadın, sənin müdrikliyin əvəzsizdir!

Ərin qazancı sel olsa da sənin bəndin onu sərhəddində saxladı. Bax, beləcə bütün ağıllı kişilərin arxasında mütləq bir ağıllı qadın var dedilər. Axı belə gördülər. Bəli, bu sənsən, qadın.

Dünya qadınları bir yana, sən bir yanasan, türk qadını. Atalar oğulla qürurlanarkən heç qırılmadın, sən də qoşuldun onlara, belə olmalı kimi... Süfrənin əziz tikəsi oğula verilərkən heç boynunu bükmədin, yemişkən varam dedin. Oğul toyunda doğmaların qol açdılar, sevindilər, qız toyuna ayıb deyəndə kövrəldin ayrıldığına. Bir yükdən keçib, bir yükə qatlanmağa getdin. Yox, heç yükünü qoyub getmədin ha. O sənin əbədi qayğı yükündür. Nə ata bildin, nə tuta bildin. Gəlməsən də gözünün şöləsiylə cığır açdın ata yurduna.

Oğul ata ocağında çıra yandıranda o çırayla öyündün, iti hürsün, işığı gəlsin dedin; nə ummadın, nə küsmədin. Sən busan, türk qadını.

Mənəm deyən oğulları da sən yetirdin, bəzən unudulsan da, təki sağ olsunlar bəsimdir dedin. Sən busan, türk qadını.

Elə özün kimi də qızlar yetirdin. Ona da eyni örnəkdən don geydirdin. Belə olmalısan. Belə öyrət dedin. Belə olmuşuq dedin. Belə görmüşük dedin. Doğulandan ölənəcən belə oldun, türk qadını!

Cəngavərlikdən örpəyə keçdin, öz hünərini oğullara verdin. Örpəyinlə ismətləndin, abırlandın. Ər çöldən, mən içdən qoruyaq dedin ocağımızı. Bax, beləcə yuvanı dişi quş qurur – gördülər. Şərəfləndi türk qadını.

Bəzən oğullarla, ərlərlə birgə silahlandın. Bəzən də silahın qələm oldu, təhsil verdin, loğman oldun. Oğullarla yan-yana addımladın. Zəif cins desələr də, bax, sən busan, türk qadını!

Bütün günü işləsən də evinə gəlib yenə işinə davam etdin, uşaqların qayğısı, mətbəxin sahmanı, qadın əlinin ruzisi, bərəkəti süfrəyə gəldi. Nə yoruldum deyər, nə bezdim deyərsən. Sən busan, qadın, bu!

Mən sənə dəyiş demərəm, çünki sən bu əziyyətlərdən zövq alansan, qadın! Mən sənə etmə demərəm, onsuz da edəcəksən. Mən bilirəm dəyişməyəcəksən, edəcəksən. Sadəcə özünü qiymətləndir deyəcəm. Özünə qiymət ver deyəcəm. Sən borcumdur dedikcə, hamı səni borclu bildi. Yox, sən kimsəyə borclu deyilsən, qadın!

Bütün bəşəriyyət sənə borcludur – başlanğıc üçün. Sən də hamıdan birisən. Hər dərdə dözə-dözə qızlarına dözüm öyrətdin, sıramız pozulmasın deyə...

Sən dəyişməzsən, türk qadını! Sən busan, bu! Dözmüşüm, dözənim! Varlığınla həyatı var edirsən. Qarşında baş əyirəm. Varlığın mübarək, QADIN!

**Esmira ƏLƏKBƏRLİ**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# MƏDƏNİYYƏT, YOXSA MƏDƏ-NİYYƏT?



**Binəli İSLAMOĞLU**

binaliislamoglu@gmail.com

Bu kartof-soğan məsələsi bəzi insanların mədə-niyyətinə çevrilib, canlarına hopub. Axı biz nə vaxta qədər mənliyimizi, kimliyimizi, mədəniyyətimizi, gələcəyimizi mədəmizin qurbanına çevirəcəyik? Kimsə sizə yeməyin, içməyin, ac qalın demir. Amma hər dəfə hər sözün önündə və arxasında mədəniz dayanırsa bu, bizi uçuruma aparır. Sokratın da dediyi kimi, yaşamaq üçün yemək lazımdır, yemək üçün yaşamaq yox.

Biz ömür boyu uşağın gələcəyi üçün təhsilə pul yatırmaqdan qorxmuşuq. Elə bilirik ki, uşaq hansısa dərnəyə, teatra, təhsil mərkəzinə getsə, ora pul xərcləsək, aylıq ödəniş etsək acından öləcəyik. Mən burada həqiqətən imkanı olmayan insanlardan yox, imkanı olub, amma yenə də kartof-soğanı misal gətirən valideynlərdən bəhs edirəm. Çünki imkanı olmayan valideyn boğazından kəsib övladını oxudur. Əgər biz uşağa yatırım qoymasaq gələcəkdə istədiyimiz nəticəni əldə edə bilməyəcəyik.

Bunu niyə yazıram? Gələk əsas məsələyə. Bölgələrin birində teatr tamaşası göstərirdik. Bir xanım övladı üçün bilet alır, digər xanım isə ona belə deyir: "Boş ver, bambılı-bambılı şeylərə 5 lari verəcəyinə, gedib kartof-soğan alarsan"...

Burada Çarli Çaplinin qısa, amma mənalı hekayəsi yadıma düşdü. Əgər həmin xanım başqa bir şey desəydi, bu yazını heç yazmazdım da. Məsələ 5 lariyə evinə çörək, uşağına dəftər-qələm, kitab almaq olsaydı, bəlkə də anlaşılardı və ya Çaplinin atasının etdiyi jesti etsəydi yenə başa düşülən olardı. Amma kartof-soğan misalı absurddur. Axı nə vaxta qədər sizlər hər şeyə kartof-soğanı misal gətirəcəksiniz? Qınamıram yox ey, qınayıram sizi, bu kartof-soğan sizə seçkilərdən qalma bir adətdir. Niyə insanlar sizi həmişə bununla xatırlamalıdır? Nə vaxta qədər teatrda çalışan, teatra gedən insanlara bambılı kimi baxacaqsınız? Nə zamandan əsərə səhnədən canlı baxmaq bambılılıq olub? Siz uşaqları maarifləndirici dərnəklərə, muzeylərə, tədbirlərə yox, zooparka aparmağa üstünlük verirsiniz. Mən özüm şahidi olmuşam. Bir ana uşağını zooparka aparır və orada meymunu göstərərək deyir: "Bax, bu sənin atandır".

Bu gülməli deyil, əksinə, ağlamalı bir vəziyyətdir. Nə vaxta qədər biz uşaqlarımıza şit hərəkətlər, gülməli olsun deyə arqo ifadələr öyrədəcəyik? Uşaq nəyi görürsə onu mənimsəyir. Əgər biz ona tərbiyəli və mədəni danışıq tərzi aşılamırıqsa, onda gələcəkdə ondan mədəni nələrsə gözləmək çətin olacaq.

Bu gün teatra getmək üçün 5 lari vermək istəməyən həmin xanım 5 lariyə "bir ələm kartof-soğan alarsan" deyir. Lakin elə həmin valideyn zooparka getməyi daha üstün tutur. Halbuki zooparka getmək daha baha başa oturur – yol xərci, bilet pulu, yemək pulu, attrsaksion pulu... Axı bu qədər pula bir çuval kartof-soğan almaq olar. Uşaqlar bizim gələcəyimizdir və onların formalaşması bilavasitə bizim tərbiyəmizdən asılıdır. Gəlin uşaqlarımıza şit zarafatlar və lazımsız ifadələr yox, savad, mədəniyyət və hörmət öyrədək!

Yazımı Çarli Çaplinin başına gəlmiş bir hadisəni qeyd etməklə bitirirəm:

"Uşaq vaxtı atamla sirkə getmişdik. Bilet satılan kassanın qarşısında uzun bir növbə var idi. Bizdən öndə ata, ana və 6 uşaqdan ibarət bir ailə dayanmışdı. Kasıb olduqları çox bilinirdi. Paltarları köhnə olsa da çox təmiz idi. Uşaqlar sevincdən atılıb-düşürdülər. Sirkə gələ bildiklərinə görə çox xoşbəxt idilər.

Bir azdan onlara da növbə çatdı. Ata kassaya yaxınlaşdı və biletin qiymətini soruşdu. Kassir ona qiyməti deyəndə, kəkələməyə başladı. Dönüb həyat yoldaşının qulağına nələrsə pıçıldadı. Üzündən pis vəziyyətə düşdüyü açıq-aşkar bilinirdi.

Atam cibindən 20 dollar çıxardı və yerə atdı. Sonra əyilib yerdən qaldırdı və kişinin çiyninə toxunaraq:

– Pulunuz yerə düşdü, cənab, – dedi.

Kişi atama baxdı və gözləri dolaraq:

– Təşəkkür edirəm, cənab, – dedi.

Onlar bilet alıb içəri girdikdən sonra atam mənim əlimdən tutub növbədən çıxdı. Çünki atamın o kişiyə verdiyi 20 dollardan başqa pulu yox idi.

O gündən sonra atamla fəxr etdim. O iki dəqiqədə izlədiyim anlar mənim həyatımda ən gözəl tamaşa idi – o gün izləyə bilmədiyim sirkdən daha gözəl bir tamaşa".

## MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLARA QEYDİYYAT APRELİN 2-NƏ KİMİ DAVAM EDƏCƏK

**Müəllim və müəllim olmaq istəyənlər üçün qeydiyyat martın 11-də başlayıb və 2 aprel saat 18:00-a qədər davam edəcək.** Qeydiyyat yalnız elektron qaydada Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin veb-səhifəsində – "online.naec.ge"də mümkündür.

**İstəyi olanlar xüsusi baş müəllim, baza peşə bacarıqları və aşağıda sadalanan istənilən fənn üzrə imtahana qeydiyyat ola bilərlər:**

- Gürcü dili və ədəbiyyatı (ibtidai pillə);
- Riyaziyyat (ibtidai pillə);
- Təbiətşünaslıq (ibtidai pillə);
- Gürcü dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
- Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
- Rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
- Erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər);
- Gürcü dili və ədəbiyyatı (baza və ya orta pillə);
- Qeyri-gürcüdilli məktəblər və bölmələr üçün gürcü dili (ibtidai, baza və ya orta pillə);
- Riyaziyyat (ibtidai və orta pillə);
- İctimai elmlər: tarix, coğrafiya, vətəndaş təhsili (ibtidai və ya orta pillə);
- Təbiət elmləri: fizika, kimya, biologiya (ibtidai, və ya orta pillə);
- Xarici dillər: ingilis, alman, fransız, rus, italyan (ibtidai, baza və ya orta pillə);
- Estetik fənlər: tətbiqi və təsviri incəsənər, musiqi.
- İdman;
- İnformasiya və kommunikasiya texnologiyaları/kompüter texnologiyaları;
- Erməni dili imtahanı;
- Azərbaycan dili imtahanı.

**Qeyd edək ki, xüsusi baş müəllim imtahanı üçün testlər erməni, Azərbaycan və rus dilinə tərcümə olunub. Həmçinin aşağıdakı imtahanlar ilk dəfə keçiriləcək:**

- Azərbaycan dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) – test tapşırığı nümunələri;
- Rus dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) – test tapşırığı nümunələri;
- Erməni dili və ədəbiyyatı, riyaziyyat və təbiətşünaslıq (I-IV siniflər) – test tapşırığı nümunələri.

İstəyi olan hər kəsin yalnız bir fənn seçmək, eləcə də xüsusi baş müəllim və ya baza peşə bacarıqları imtahanını seçmək hüququ var.

**Qeydiyyat zamanı müvafiq imtahanı gürcü, Azərbaycan, rus və erməni dilində seçmək mümkündür.**

İmtahana qeydiyyat üçün 50 lari ödənilməlidir.

**Mümkün ödəniş vasitələri və bank xidməti haqqı:**

"Gürcüstan Bankı"nın ödəniş platforması vasitəsi ilə (bogpay.ge) – ödənilən məbləğin üzərinə 0,5 lari üstəgəl 1,2 % xidmət haqqı əlavə edilir;

"Gürcüstan Bankı"nın terminalı vasitəsi ilə – ödənilən məbləğin üzərinə 0,5 lari xidmət haqqı əlavə edilir;

"Gürcüstan Bankı"nın "ibank.ge" internet bankı vasitəsi ilə – ödənilən məbləğin üzərinə 0,5 lari xidmət haqqı əlavə edilir;

"Gürcüstan Bankı"nın "mBank" mobil tətbiqi vasitəsi ilə – ödənilən məbləğin üzərinə 0,5 lari xidmət haqqı əlavə edilir.

**Təcrübəçi müəllimlərin nəzərinə:**

Təcrübəçi müəllim statusu olan pedaqoqlar üçün fənn imtahanına, xüsusi təcrübəçi müəllim statusu olan pedaqoqlar üçün xüsusi baş müəllim imtahanına qeydiyyat pulsuzdur.

Əgər imtahan verən şəxs 2 aprel saat 18:00-a qədər imtahanda iştirak etmək üçün müəyyən edilmiş məbləği ödəyərsə, lakin qeydiyyat prosesini hər hansı səbəbdən sona çatdıra bilməzsə, onlara 10 aprel saat 18:00-a kimi qeydiyyatı başa çatdırmaq imkanı veriləcək. Eləcə də qeydiyyat ərizəsində (imtahan verəcəkləri şəhəri və ya fənni dəyişmək) dəyişiklik etmək imkanı yaradılacaq. Həmin müddət başa çatdıqdan sonra isə dəyişiklik etmək mümkün olmayacaq.

İmtahan verən şəxsin spesifik imtahan mühitinin yaradılmasına ehtiyacı varsa, qeydiyyat zamanı "xüsusi şərtləri" qeyd etməlidir, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzə (Ünvan: Tbilisi, E.Mindeli N9), regionlarda isə yerli təhsil-resurs mərkəzlərinə 10 aprel saat 18:00-a kimi müvafiq sağlamlıq arayışını (forma N100) təqdim etməlidir.

***Əgər imtahan verən şəxs Gürcüstanın "Ümumi təhsil haqqında" qanunu ilə müəyyən edilmiş qaydada müəllimin təhsili ilə bağlı tələbləri qane etmirsə o, imtahanda qazandığı nəticəni müəllim fəaliyyətində istifadə edə bilməyəcək.***

## 2025-Cİ İLİN VAHİD MİLLİ İMTAHANLARINA QEYDİYYAT BAŞLAYIB

Cari il vahid milli imtahanlar, ümumi magistratura imtahanları və tələblərin qrant müsabiqəsi üçün qeydiyyat martın 5-dən başlayıb və 2 aprel saat 18:00-a qədər davam edəcək.

Məsələ ilə bağlı Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin direktoru Nino Tsereteli martın 4-də brifinq keçirib.

*"Bu il də mərkəzin məzunlara əsas məsləhəti budur ki, qeydiyyat təlimatı ilə ətraflı tanış olsunlar, ən əsası, tarixlərə xüsusi diqqət yetirsinlər. Bu il məzunlar üçün kiçik olsa da mühüm yeniliyimiz var. Əgər onlar imtahana qeydiyyat haqqını 2 aprel saat 18:00-a qədər ödəsələr, amma qeydiyyat prosesini sona çatdıra bilməsələr, 10 aprel saat 18:00-a qədər qeydiyyatı başa vurmaq imkanları olacaq",* – deyə Nino Tsereteli bildirib.

Qeydiyyatdan keçmək "online.naec.ge" veb-səhifəsində mümkündür.

Vahid milli imtahanlara qeydiyyat olmaq istəyənlər nəzərə almalıdırlar ki, qeydiyyat prosesi bu il də bir neçə mərhələdən ibarətdir:

Əsas mərhələdə imtahanda iştirak etmək istəyən şəxs 2 aprel saat 18:00-a qədər qeydiyyat haqqını ödəməli və şəxsi məlumatlarını, həmçinin imtahan verəcəyi şəhəri, fənləri qeyd etməlidir. Abituriyentlər 10 aprel saat 18:00-a qədər fənn, imtahan dilini və imtahan verəcəkləri şəhəri dəyişə bilərlər.

Qeydiyyatdan keçmiş abituriyentlər təhsil proqramlarının prioritet siyahısını dəfələrlə dəyişə biləcəklər. Abituriyentlərin aplikasiyaların nəticələrinin yayımlanmasının növbəti günü seçmək, silmək, əvəz etmək imkanları olacaq. Dəqiq tarix "www.naec.ge" veb-səhifəsində yayımlanacaq.

Abituriyentlərin daha çox məlumat alması məqsədi ilə 2025-ci ildə də onlarla birbaşa, eləcə də onlayn rejimdə məlumatlandırıcı görüşlər keçiriləcək. Ətraflı məlumat Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin veb-səhifəsində, feysbuk səhifəsində yayımlanacaq.

Nəzərə almaq lazımdır ki, yekun sinifdə təhsil almayan şagirdlər 2025-ci ilin vahid milli imtahanlarına buraxılmayacaqlar. Mərkəz növbəti il yekun sinifdə təhsil almayan şagirdlər üçün alternativ layihənin təklif edilməsi imkanını müzakirə edəcək.

## 2025-2026-CI TƏDRİS İLİ ÜÇÜN ŞAGİRDLƏRİN BİRİNCİ SİNFƏ QEYDİYYATI BAŞLAYIB

Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi 2025-2026-cı tədris ili üçün ictimai məktəblərdə birinci siniflərin qeydiyyat müddətini və şərtləri müəyyən edib.

Bildiyimiz kimi, 31 dekabra qədər 6 yaşı tamam olmuş uşaqlar da birinci sinfə qeydiyyat oluna biləcəklər.

Qeydiyyat həmişə olduğu kimi dörd mərhələdən ibarət olacaq.

**I mərhələ.** Qeydiyyatın birinci mərhələsi 2025-ci il **martın 10-dan martın 21-nə kimi** məktəblərdə həyata keçiriləcək. Bu mərhələdə xüsusi təhsilə ehtiyacı olan uşaqlar qeydiyyatdan keçiriləcəklər.

Birinci mərhələdə qeydiyyatdan keçmiş uşaqların valideynləri istədikləri məktəbə ərizə ilə müraciət edə bilərlər. Məktəb rəhbərliyi uşağı Təhsilin İdarəsi üzrə Məlumat Sistemində (EMIS) qeydiyyatdan keçirəcək. Uşağın xüsusi təhsilə ehtiyacı olduğunu təsdiq etmək məqsədi ilə valideyn məktəbdə müvafiq müraciət forması doldurmalı və bundan sonra multidisiplin komandası tərəfindən uşaq qiymətləndirilərək xüsusi təhsilə ehtiyacı olub-olmaması müəyyən edilir. Xüsusi təhsilə ehtiyacı olduğu təsdiq olunarsa məktəb müvafiq sənəd əsasında şagirdin qəbul edilməsini təmin edir.

Birinci mərhələdə qeydiyyatdan keçmiş uşağın sənədi 2025-ci ilin **24 mart tarixindən 30 aprel tarixinə qədər məktəbə təqdim olunmalıdır.**

***Xüsusi təhsilə ehtiyacı olan şagirdlər bunlardır:***

a) Fiziki məhdudiyyəti olan; b) İntellektual inkişaf pozuntusu olan; c) Tədris qabiliyyəti pozuntusu olan; ç) Sensor inkişafı pozuntusu olan (eşitmə və ya görmə); d) Nitq qabiliyyəti pozuntusu olan; e) Davranış və emosional pozuntusu olan; ə) Uzun müddət xəstəxanada qalmaq ehtiyacı olan; f) Təhsildə sosial faktorlardan yaranmış çətinliklər və buna görə də milli tədris planının tələblərini yerinə yetirə bilməyən; g) Autizm spektri olan.

Xüsusi təhsilə ehtiyacı təsdiqlənməyən uşaqların növbəti mərhələlərdə qeydiyyatdan keçirilməsi mümkün olacaq.

**II mərhələ.** Bu mərhələdə qeydiyyat və sənədlərin təqdim edilməsi 2025-ci il **mayın 2-dən mayın 20-nə qədər** həyata keçiriləcək.

II mərhələdə qeydiyyatdan keçiriləcək uşaqlar bunlardır:

a) Eyni məktəbdə təhsil alan bacı və qardaş;

b) Valideyni/qəyyumu həmin məktəbin əməkdaşı olanlar;

c) Bir ailədən eyni zamanda birinci sinfə daxil olan iki və daha çox olan uşaqlar.

Uşağın qəbulu üçün vacib sənədlərin təqdim olunması əsasında qeydiyyatı ictimai məktəb təmin edir.

**III mərhələ.** Bu mərhələdə ümumi onlayn qeydiyyat 2025-ci il **mayın 22-dən başlayacaq və iyunun 17-nə qədər davam edəcək.**

Qeydiyyat Təhsilin İdarəsi üzrə Məlumat Sisteminin rəsmi veb-səhifəsində – **"registration.emis.ge"**də həyata keçiriləcək. Qeydiyyatı valideyn/qanuni nümayəndə aparır.

Elektron qeydiyyatdan keçmiş şagirdin vacib sənədlərinin təqdim edilməsi **18 iyundan 27 iyuna qədər həyata keçiriləcək.**

Təyin edilmiş vaxtda sənədlər təqdim olunmazsa qeydiyyat avtomatik ləğv olunacaq.

**IV mərhələ.** Bu mərhələdə azad olunan, yaxud boş qalmış yerlərə I, II və III mərhələlərdə qeydiyyatdan keçmiş, yaxud qeydiyyatı dəyişmək istəyən şagirdlər qeydiyyat olunacaq. Bu mərhələdə qeydiyyat 2025-ci il **30 iyundan 15 iyula qədər həyata keçiriləcək.**

Məktəb dördüncü mərhələdə valideynin/qanuni nümayəndənin təqdim etdiyi vacib sənəd əsasında şagirdin qeydiyyatını təmin edir.

***Birinci sinfə qəbul olmaq üçün lazım olan sənədlər isə bunlardır:***

- Şagirdin qanuni nümayəndəsinin ərizəsi. Ərizədə qanuni nümayəndənin yaşayış yeri və telefon nömrəsi haqqında məlumat qeyd olunmalıdır. Ərizə Gürcüstan Ümumi İnzibati Məcəlləsinin 78-ci maddəsi ilə müəyyən edilmiş digər tələblərə uyğun olmalıdır. Qanuni nümayəndənin şəxsiyyəti təsdiq edən sənədinin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin nüsxəsi (belə hal olarsa). Sənədlər xarici dildə olarsa Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya uyğun olaraq gürcü dilinə tərcüməsi də təqdim olunmalıdır.
- Şagirdin doğum şəhadətnaməsi, yaxud şəxsiyyəti təsdiq edən sənədin nüsxəsi və Gürcüstanda müvəqqəti yaşayışı təsdiq edən sənədin nüsxəsi (belə hal olarsa). Sənədlər xarici dildə olarsa Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydaya uyğun olaraq gürcü dilinə tərcüməsi də təqdim olunmalıdır.

***Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyi valideynləri qeydiyyat müddəti və şərtləri ilə diqqətlə tanış olmağa çağırır ki, uşaqları vaxtında və maneəsiz məktəbə qeydiyyat edə bilsinlər.***

***Səhifədəki məlumatlar "edu.aris.ge" və "etaloni.ge" saytlarından götürülüb. Gürcü dilindən tərcümə etdi Aynurə ƏLİYEVA***



# KİŞİNİN KİMLİYİNİ TƏSDİQLƏYƏN BƏLGƏ

İnsanın baş geyimi də, digər geyimləri kimi, başlanğıcda insanı təbiətin şıltaqlıqlarından – soyuqdan, istidən, yağışdan, küləkdən, günəş şüalarından qorumağa xidmət etmiş, tarixi inkişafın sonrakı mərhələlərində isə yeni mənalar, yeni keyfiyyətlər qazanmışdır. İnsanın qoruyucusuna çevrilən geyim, o cümlədən də kişi papağı, qadın baş yaylığı zaman keçdikcə mənəvi dəyərlərlə də yüklənmiş, daha geniş anlamlar ifadə etməli olmuşdur.

Papaq kişiliyin, ərliyin, ərənliyin bəlgəsidir. Bəzən papaq kişiliklə, ərliklə, ərənliklə eyniləşdirilir. Biz insanın adıyla özünün bərabər tutulması barədə başqa bir yazımızda söhbət açmışıq. Papağın da əski düşüncədə insanla bərabər tutulması, şəxsin özünü təhqir etməklə papağını təhqir etmək arasında heç bir fərqin qoyulmadığının şahidi oluruq. Şəxsin özünə və ya papağına qarğış edilməsi eyni mənanı ifadə edirdi. El ağzında bu gün də işlədilən bir sıra qarğışlar dediklərimizi təsdiqləyir. “Papağın boş qalsın”, “Papağıyın qəlfi boş qalsın”, “Papağıyın altı boş qalsın”, “Papağın mıxdan asılı qalsın”, “Papağın hərmədə qalsın” kimi qarğışlarda papağın şəxsin özüylə, papaq sahibiylə eyniləşdirildiyi, onların arasında bərabərlik işarəsi qoyulduğu aydın seçilir. Xalq dilindən gətirdiyimiz bu misallarda papaq sahibinə qarğış edilməsi, ona ölüm arzulanması aydın sezilsə də, qarğış papaq vasitəsilə ifadə olunur, papağın sahibsiz qalması qabardılır.

Burada bir haşiyə çıxmamız gərəkdir. Belə ki, ölmüş şəxsin paltarı – sovxası onun il mərasimindən sonra fəqir-füqəraya verilsə də, papağı və ayaqqabısı evdə saxlanılırdı. Ölmüş şəxsin papağı gözəgəlimli bir yerdə, bizim misalımızda hərmədə, yəni taxçada və ya mıxda, yəni asılqanda saxlanılırdı. Görünür bu, papaq sahibinin ruhunu küsdürməmək və ya ata-baba ruhlarına inamlarla bağlı bir adət olmuşdur. Ruhun ölməzliyinə inanan əcdadlarımız papaq yiyəsinin ruhunun hər həftənin cümə axşamları – adna axşamları evə gələcəyinə inanırdılar. Cümə axşamları evdə ölülərin adına qazan asılması, yemək hazırlanması da onun qarşılanmasına, onun razı salınmasına xidmət edirdi. Ailəni ziyarətə gələn ruhun öz papağını taxçada və ya asılqanda görməməsi onu küsdürə və ailəyə bədbəxtliklər gətirə bilərdi. Görünür ölmüş şəxsin papağı ailə üzvlərinin onu hər zaman xatırlaması, ona ehtiram bəsləməsi üçün bu cür saxlanılırdı.

Papaq kişini tanıdan, cəmiyyətdə onun statusunu, kimliyini müəyyən edən bir vasitədir. Ailədə, eldə kişi cinsindən olanları anlatmaq üçün “paşıpapaqlı” deyimindən istifadə olunması geniş yayılmış ənənə idi. Tarixin müəyyən kəsimlərində papaq artıq fərdləri deyil, toplumları, tayfaları və tayfa birliklərini, hətta sonralar bütöv xalqı tanıdan nişana çevrilərək mənaca genişlənmişdir. Rus illikyazılarının XII yüzillikdən “çyornıe klobuki”, yəni “qarabörüklülər”, “qarapapaqlar” kimi bəhs etdiyi türk toplumlarının tərkibinə tork, peçeneq, berendey və kovi (koyi) türk boyları daxil idi. Qaraqalpaq xalqının bu boylarla bağlılığı barədə də fikirlər mövcuddur. Bu gün Gürcüstan, Türkiyə və İranda yaşayan Qarapapaqların da rus salnamələrində adı çəkilən qarabörklülərlə əlaqəsi barədə elmi ədəbiyyatda müəyyən fikirlərə rast gəlmək imkanımız var. Fikrimizcə, Qarapapaq türklərinin adı bir qədər sonra, daha doğrusu XVI yüzillikdən meydana çıxa bilərdi. Belə ki, bəhs olunan dövrdə sünni və şiə məzhəb müsəlmanları bir-birindən fərqləndirmək üçün “qarapapaqlar” və “qızılbaşlar” kimi istilahların yaranması mümkün idi. Həmin coğrafiyada Səfəvi-Osmanlı müharibələri nəticəsində dini kimliyi anlatmaq üçün bu cür istilahlardan istifadə olunması daha ağlabatandır.



Bir kişinin papağını başından çıxarıb yerə vurması, həmin şəxsin daxili həyəcanının ifadəsidir. Onun kiməsə hirslənməsinin, baş vermiş hadisədən qəzəblənməsinin, eləcə də dərin sarsıntı keçirməsinin əlaməti sayılırdı. Papağın başdan çıxarılaraq sahibi tərəfindən yerə çırpılması məsələnin ciddiliyindən, hətta qan davasına qədər gedib çıxacağından xəbər verirdi. Mübahisə və ya münaqişə zamanı kişinin papağını çıxarıb yerə vurması onun güzəştə getməyəcəyi, münaqişəni axıra qədər çürütməyə hazır olması anlamına gəlirdi. Kişi papağını yerə vurmaqla şəxsinə qarşı yönəlmiş həqarətə görə qisas alacağını, bunu etməsə papaq geyinməyin ona haram olmasını, intiqam almadan başına papaq qoymayacağını anlatmaq istəyirdi. Papaqsızlıq isə şəxsin yarımçıqlığının, natamamlığının, kişi olmamasının bəlirtisi sayıla, onun cəmiyyətdən çıxdaş olunmasına gətirib çıxara bilərdi.

Bir kişinin papağının başından çıxarılması da ona qarşı həqarət sayılırdı. Əgər kişi papağını çıxarıb bir yerə qoyardısa, kimsənin ona toxunmaq haqqı yox idi. Obrazlı desək, əski dönəmlərdən yaxın keçmişimizədək geyim dəsti içərisində toxunulmazlıq hüququ qazanmış yeganə nəsnə papaqdır.

Xalq danışıq dilində “papağımı/papağımızı yerə soxdu və ya soxdular” kimi bir deyimin varlığı nədən xəbər verir? Ailə üzvlərindən biri tərbiyəsizlik, əxlaqsızlıq və ya elin ümumi qayda-qanunundan kənar bir hərəkət edərkən, ailə ağsaqqalı və ya evin ağbirçəyi həyəcanla bu cümləni işlədərək, ailəcə el qarşısında biabır olduqlarını, baş vermiş hadisəyə görə el içinə çıxmağın, baş qaldırıb gəzməyin mümkünsüzlüyünü bəyan edir. İfadəni dilinə gətirən ailə başçısının təəssüf və nifrət qarışıq söylədiyi bu bir neçə söz onun keçirdiyi psixoloji sarsıntını nümayiş etdirmək üçün yetərli idi. Elin adətini pozmuş ailə üzvü evin böyüyünün daxili dünyasını viran etmiş hərəkətinin bağışlanmaz olduğunu anlayır, evdə, şenlikdə onu gözləyən cəzanın ədaləti bərpa etmək üçün haqq olduğuna inanır, bəzən eldən-obadan çıxaraq, başını götürüb qürbət ellərə gedir, ömrünün qalan hissəsini qəriblikdə keçirir, bəzənsə veriləcək cəzanı gözləmədən özünə əl qatıb, intihar edir, özü öz cəzasını kəsə bilirdi.

Çərkəzlərdə “Danışacaq kimsən yoxsa papağınla danış” kimi atalar sözü papağın bir kişi üçün əhəmiyyətini və məsuliyyətliyini anlatdığı kimi, bizim “papağını qabağına qoy, düşün” deyimimiz də papağın sahibi ilə həmsöhbət olmasını ifadə edir. Papaq dərd yoldaşıdır, onunla dərdləşərək, sahibi qəlbini gəmirən, könlünə dinclik verməyən hər hansı bir müşkülünü çözmək, həyatın çiyinlərinə yüklədiyi ağır yükü az da olsa yüngülləşdirmək istəyir. Təklənmiş, özünə könül həmdəmi tapa bilməyən bir kişi üçün papağı həmsöhbətə çevrilir. Başqa halda isə, kişi məsuliyyətli bir işə başlamazdan əvvəl papağını qabağına qoyub onunla məsləhətləşməli, yüz ölçüb, bir biçməli olur.

Papaq kişinin kimliyini, şəxsiyyətini təsdiq edən sənəd yerində çıxış edir. Belə demək mümkünsə, papağını göstər, sənin kim olduğunu söyləyim. Papaq güzgüdür, onun vasitəsilə sahibinin kimliyini ortaya çıxarmaq mümkündür. Tez-tez şikayətlənən, ağlayıb-sıtqayan, yoxsulluğun, dolanışığın çətinliyini hər addımda vurğulayan adama “Get, papağını qabağına qoy dilən” deməklə bu sadə gerçəkliyi ona anlatmaq istəyirdilər. Xalq düşüncəsinə görə kişiliyin göstəricilərindən biri də hər çətinlik barədə yerli-yersiz danışmamaq, şikayət etməməkdir.

*(davamı növbəti sayda)*

**Afiq MUXTAROĞLU**

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN DƏRSƏ OLAN MARAQLARINI ARTIRMAĞIN YOLLARI



İbtidai sinif şagirdlərinin dərsə olan marağını artırmaq onların gələcək təhsil və həyat uğurları üçün vacibdir. Dərs prosesinə fəal şəkildə cəlb olunmaq şagirdlərin motivasiyasını və öyrənmə həvəsini artırır.

Bunun üçün müxtəlif yanaşmalar mövcuddur. Hər bir şagird fərqli olsa da, ümumiyyətlə, bəzi ümumi prinsiplər və təcrübələr mövcuddur ki, bunlar dərslərin maraqlı və təsirli olmasını təmin edir. Aşağıda sizə bu mövzuda geniş və ətraflı bir məqalə təqdim edirəm:

***İbtidai sinif şagirdlərinin dərsə olan maraqlarını artırma yolları:***

**Motivasiya yaratmaq.** Şagirdlərə dərslərin maraqlı və əyləncəli olduğunu göstərmək üçün müxtəlif oyunlar və fəaliyyətlər təşkil etmək əhəmiyyətlidir. Kiçik mükafatlar (məsələn, stikerlər və hədiyyələr) şagirdlərin motivasiyasını yüksəldir.

**İnteraktiv tədris metodları.** Şagirdlərin dərsə marağını artırmağın əsas yollarından biri interaktiv tədris metodlarından istifadə etməkdir. Bu metodlar şagirdlərin dərslərdə fəal iştirakını təmin edir və onların diqqətini cəlb edir.

**Aktiv tədris metodları.** Şagirdlərin dərs prosesində fəal iştirakını təmin etmək üçün interaktiv metodlardan istifadə etmək vacibdir. Qrup işləri və laboratoriya təcrübələri dərs mövzularının daha yaxşı anlaşıla bilməsi üçün idealdır. Multimedia vasitələri (videolar, interaktiv lövhələr) dərsləri daha maraqlı edir.

Müəllim olaraq tarix dərsində interaktiv xəritələr və tarixi hadisələrin animasiyalarını istifadə edin. Şagirdlər bu animasiyaları izləyərkən, tarixi hadisələri daha yaxşı başa düşür və yadda saxlayırlar.

**Fərdi yanaşma.** Hər bir şagirdin fərdi maraqlarını və ehtiyaclarını nəzərə almaq tədris prosesinin səmərəliliyini artırır. Fərdi tapşırıqlar və fəaliyyətlər şagirdlərin dərsə olan marağını gücləndirir.

**Praktiki əlaqə.** Dərs mövzularının real həyatda tətbiq oluna biləcəyi yolları şagirdlərə göstərmək öyrənməni onlara daha maraqlı edir. Müxtəlif ekskursiyalar və səfərlər dərs mövzularının daha yaxşı başa düşülməsinə kömək edir.

**Valideynlərin rolunu artırmaq.** Valideynləri dərs prosesinə cəlb etmək və onlara şagirdlərin dərs mövzularına marağını artırmaq yollarını izah etmək vacibdir. Ailə dəstəyi şagirdlərin motivasiyasını və öyrənmə həvəsini artırır.

**Yaradıcılığı təşviq etmək.** Şagirdlərin yaradıcı düşüncələrini stimullaşdırmaq üçün dərslərdə müxtəlif yaradıcılıq fəaliyyətləri təşkil etmək əhəmiyyətlidir. Şagirdlərə öz fikirlərini sərbəst ifadə etmələri üçün imkanlar yaradın.

Ədəbiyyat dərsində şagirdlərə kiçik hekayələr yazdırın. Onlar öz hekayələrini sinif yoldaşları ilə paylaşır və müzakirə edirlər. Bu, şagirdlərin yazı qabiliyyətləri-ni inkişaf etdirməklə yanaşı, onların yaradıcılığını da artırır.

**Real dünya ilə əlaqə qurmaq.** Müəllimlər tədris mövzularını real dünya ilə əlaqələndirərək şagirdlərin dərsə marağını artırmalıdırlar. Bu, dərslərin mənalı və əlaqəli olmasına kömək edir.

Riyaziyyat dərsində şagirdlərə supermarketdə alış-veriş edərkən necə düzgün büdcə hazırlamağı öyrədirəm. Bu, onların riyaziyyat biliklərini real dünya ilə əlaqələndirir və maraqlarını artırır.

**Texnologiyanın inteqrasiyası.** Müasir dövrdə texnologiyadan istifadə etmədən şagirdlərin dərsə marağını artırmaq çətin ola bilər. Müxtəlif texnoloji vasitələrdən istifadə edərək dərsləri daha maraqlı və interaktiv etmək mümkündür.

Təbiət elmləri dərsində şagirdlərə təbiət hadisələrinin video və animasiyalarını göstərirəm. Bu, onların təbiət hadisələrini daha yaxşı anlamalarına kömək edir.

**Qrup fəaliyyətləri və müştərək işlər.** Qrup fəaliyyətləri və müştərək işlər şagirdlərin sosial bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların dərsə marağını da artırır. Şagirdlər bir-biri ilə əməkdaşlıq edərək öyrənirlər.

Tarix dərsində şagirdləri kiçik qruplara bölüb, onlara müxtəlif tarixi hadisələr haqqında tədqiqat aparmağı tapşırın. Hər qrup öz tədqiqatını sinifdə təqdim edir və digər qruplarla müzakirə edir.

Bir təcrübəli müəllim olaraq, dərs zamanı müxtəlif metodlardan istifadə edərək şagirdlərimin dərsə olan maraqlarını artırmağa çalışıram. Məsələn, “Elm həftəsi” adlı bir layihə hazırladım. Bu layihə çərçivəsində şagirdlər müxtəlif elmi təcrübələr apardılar və nəticələrini sinifdə paylaşdılar. Bu fəaliyyət onların elmə olan marağını xeyli artırdı və elmi anlayışlarını gücləndirdi.

Bundan əlavə, sinifdə şagirdlərin nailiyyətlərini qeyd etmək üçün “Uğur divarı” yaratdım. Şagirdlər hər dəfə bir nailiyyət əldə etdikdə adları və nailiyyətləri bu divara yazılır. Bu, şagirdlərin özlərini qiymətli hiss etmələrinə və dərslərə daha çox maraq göstərmələrinə səbəb oldu.

İbtidai sinif şagirdlərinin dərsə olan marağını artırmaq üçün müxtəlif metodlar və fəaliyyətlərdən istifadə etmək mümkündür. Əsas məqsəd şagirdlərin dərsləri maraqla və həvəslə öyrənmələrini təmin etməkdir. İnteraktiv tədris metodları, yaradıcılığı təşviq etmək, real dünya ilə əlaqə qurmaq, texnologiyanın inteqrasiyası və qrup fəaliyyətləri kimi yanaşmalar bu məqsədə çatmağa kömək edə bilər.

İbtidai sinif şagirdlərinin dərsə olan marağını artırmaq onların gələcək uğurları üçün vacibdir. Motivasiya yaratmaq, aktiv tədris metodları, fərdi yanaşma, praktiki əlaqə və valideynlərin rolu dərs prosesinin səmərəliliyini artırmağa kömək edir.

Müəllim olaraq şagirdlərimizin təhsilində müsbət dəyişikliklər etmək üçün daim yeni yollar axtarmalı və onları dərslərə həvəsləndirməliyik. Bu yolla onların gələcəkdə uğurlu və xoşbəxt fərdlər kimi yetişmələrinə töhfə verəcəyik.

**Sayalı İSMAYILOVA**

*Arıxlı (Naxiduri) ictimai məktəbinin baş müəllimi*

# ALDIĞIMIZ ÇİÇƏKLƏRİ BOYAYAN ÖZ HÜQUQLARI ÜÇÜN MÜBARİZƏ APARAN QADINLARIN QANLARIDIR



Həyat elə qəribədir ki, bir gün qadın olduğun üçün zəif adlandırıla, bir gün də yenə eyni səbəbdən təbrik ala, xoş sözlər eşidə bilərsən. Bu günləri bir-biri ilə müqayisə edək desəm, riyaziyyatı çox zəif bilən biri belə doğru cavabı asanlıqla tapa bilər.

Adətən hər il mart ayının səkkizinci günü xüsusi bayram ab-havasında qarşılanır. Ailədə, qohumda, qonşuda olan bütün qadınlara təbriklər ünvanlanır, hədiyyələr verilir, xoş sözlər söylənilir. Hətta təbrik eləməsən səndən inciyib-küsən belə olur. Hər gün qadın cinayətini, qadına qarşı zorakılığı təbliğ edən seriallarda o gün "normadan" kənara çıxılaraq qadının dəyərindən danışılan bölümlər yayımlanır. Həmin günün sabahı isə həyat yenə öz normal axışına geri qayıdır.

Hər kəs təsdiqləyər ki, bu günlərdə əsasən təbriklər, hədiyyələr qarşı cinsdən gözlənilir. Amma bu mövzuda mənim düşüncəm fərqlidir, hətta sizlərə bir təklifim də var. Məncə, heç bir kişi bizə bir qadının verə biləcəyi qədər böyük bir hədiyyə verə bilməz. Ona görə də xanımlara təklifim budur ki, gəlin hər gün hədiyyələşək. Necəmi? – İndi sizə bunun yollarını açıqlayacağam, hətta daha effektiv olsun deyə belə xitab etmək istəyirəm: ay ana, ay nənə, ay xala, ay bacı!

Unutma ki, sənin başqa bir həmcinsinə verə biləcəyin ən böyük hədiyyən dəstəyindir. İnan, dəstək olmaq, hər şeydə qüsur axtarmaqdan əl çəkmək qarşındakı insanın da, sənin də həyat keyfiyyətini artırır. Həyata baxış bucağını dəyişdirməklə qazanılan və paylaşılan xoşbəxtlikdən gözəl nə hədiyyə ola bilər ki?

Məsələn, gəlin ömrünü təhsilə həsr etmiş, cəmiyyəti üçün faydalı işlər görən qadını uğurlu sayarkən, gənc yaşda evlənmiş, cəmiyyət üçün faydalı övlad böyüdən anaları uğursuz saymayaq. Həmçinin ailə qurmamış bir qadını dəyərsiz görüb, onun qazana biləcəyi ən böyük uğurun evlilik olduğunu düşünməyək. Əlləri, saçları baxımlı olan bir qadını gözəl sayarkən, həyatın eyni şərtləri ilə qarşılaşmamış, çalışmaqdan əlləri yara olmuş, stresdən saçları seyrəkləşmiş qadını çirkin saymayaq. Bir kişini yeni vəzifəyə təyin olanda təbrik etdiyimiz kimi, bir qadını da haqqında uzun-uzadı müzakirələr aparmadan təbrik edə bilək. Namus sözünü sadəcə qadına, şərəf sözünü sadəcə kişiyə aid etməyək. Bir qadın cinayəti olanda ağlımıza ilk “yəqin nəsə pis iş görüb ki, əri də öldürüb” düşüncəsi gəlməsin...

İndi də deyəcəksiniz ki, bunları kişili-qadınlı – hamımız etməliyik. Niyə sadəcə qadınlar etməlidir kimi yazıbsan? – Elə yazmamışam, əslində, sadəcə olaraq, çevriliş yolunda ilk addımı qadınlardan görməyi nə qədər çox istədiyimi vurğulamışam. Baltalara özümüzdən sap düzəltməyək demişəm...

Unutmayaq ki, bu təmtəraqlı qeyd etdiyimiz günlərdə aldığımız çiçəkləri, gülləri boyayan öz hüquqları üçün mübarizə aparmış qadınların qanıdır. Bizim üstümüzə düşən isə geridə qalan üç yüz altmış dörd günü rəngini azad gələcəkdən alan ağappaq çiçəklərlə bəzəməkdir.

**Hürnisə ƏHMƏDOVA**

*Tbilisi Dövlət Universitetinin kimya fakültəsinin ikinci kurs tələbəsi*

# AĞA MƏHƏMMƏD ŞAH QACARIN TİFLİS ŞƏHƏRİNƏ HÜCUMU

## ALEKSANDRE ORBELİANİ

*(əvvəli ötən sayda)*

Müharibədən qayıdan Ağa Məhəmməd şah Qacar elə həmin axşam ehtiyatını gördü ki, o biri gün, yəni çərşənbə axşamı, iki günlük müharibədən sonra yığışıb İrana getsin. Müşahidəçidən çar İrakliyə bu xəbər gəldi (Azərbaycan xanları İraklinin yanına xəlvəti adam göndərirdilər. Bu dövrlərdə, Gəncə xanından başqa, onların əlaqəsi var idi. Belə ki, onun özü Ağa Məhəmməd şah Qacarı Gürcüstanın üzərinə gətirdi). Yoxsa, elə həmin gecə qoşunu ilə topların yanına qayıtmaq və şəhərin ətrafını möhkəmləndirmək istəyirdi. Elə buna görə orada qaldı, yenə xəbər gözləyirdi, oradan yaxın idi. Bu səbəbdən öz nəvəsi çar Solomanı məhəbbətlə qucaqladı və onu öz döyüşçüləri ilə birlikdə böyük minnətdarlıqla yola saldı.

– "Mənim Solomanım! Nə ki, sən və sənin imerelilərin şücaət göstərdiniz, bundan sonra igidlik olmayacaq. Düzdür, xeyli imerelini itirdik, amma adları əsrlik qaldı. İndi, mənim Solomanım, sən də yorulmusan, imerelilərinlə şəhərə get. Bu gecə daha lazım deyilsiniz, imerelilərinlə bu axşam şəhərdə yaxşı dincəlin. Xalan oğlu Estade Sisişvilini, Osepa Qorğanaşvilini və İoseb Şağbataşvilini özünlə apar" (Estate Sisişvili Tiflis şəhərinin mouravisi idi, Osepa Qorğanaşviliyə çariçalığın təhkimçiləri – yurdları həvalə edilmişdir və o, çar İraklinin xəzinədarı, milaxvarisi idi *(Milaxvari – XVIII əsrin Gürcüstanında təsərrüfat sahəsinin məmuru – Tərcüməçi).* İoseb Şağbataşvili isə saray adamı idi ki, milaxvari Osepa və bu da çar İraklinin, bəli, yaxın adamları idilər, lakin ikisi də çar İraklinin xəyanətkarı və Gürcüstanın süqutuna cəhd edənlər idi. Milaxvari Osepa sonralar vəfasızlıq etdi ki, sərdar David Canbakur Orbeliani onu möhkəm əzişdirdi. Nə vaxtsa onun təsviri də olacaq. Gedin, bütün bizim xəbərləri şəhər camaatına və nənəniz çariçaya söyləyin, amma mənim getməyimi soruşmaları üçün deyin ki, sizə bunu deyəcəyəm, yenə daha yaxşıdır ki, şəhər tərk olunsun və çariça Darecanın özü də şəhəri tərk etsin. Nə bilim, bir bədbəxtlik baş verməsin, nəsə pis əhvali-ruhiyyəyə düşərəm, bizim qoşunumuz olmadığına görə və nə də varımızdır, demək olar ki, o da yarıya endi. Ancaq mənə xəbər gəldi: Ağa Məhəmməd şah Qacar sabah yığışıb getmək istəyir. Lakin bu cür tələsik mən onlara inanmıram. Onlardan çox təcrübəm var. Buna görə, şəksiz, ehtiyatlı olmalıyıq. İndi aydın görürəm mənə qarşı olan çox xəyanətləri və mən bilmirəm o xəyanət haradan olmalıdır, daha gizli bir şey var, onu başa düşə bilmirəm (Dərindən fikirləşdikdən sonra): Əgər Allah həqiqətən istəsə və Ağa Məhəmməd şah Qacar yığışıb getsə, yenə bizim yığışıb getmişləri tezcə şəhərə qaytaracağam və əgər müharibə etməli olsaq və bir şey edə bilməsək, Kaxetiyə doğru gedəcəyəm. Oradan beş, ya altı günə on iki min yaxşı atlı igid gətirəcəyəm və Sınıq körpü Ağa Məhəmməd şah Qacarın üzünə bağlanacaq. Onda mən sənin özünə göstərəcəyəm, mənim Solomanım, nə lazımdırsa onu edəcəyəm... Qoy, indi camaatsız şəhəri alsın, heç nə, haya görə, səhər tezdən sənə nə əmrim gəlsə, elə hərəkət et, hazır ol, amma o topun yanında sənin min adamın ki durur, aparma, necə dururlarsa, eləcə dursunlar". Bu sözlərlə çıxış edib getdi. Amma Araçnurti Osepa Arğutov tərəfindən öyrədilmiş Rusiyadan Artem Araratski çar İraklini və Gürcüstanı məhv etmək üçün peyda olmuşdu. O Artemdən bizi yıxmaq barədə çoxlu əhvalatlar var və indi isə bu əhvalatlar arasında onun bir işini danışacağam ki, onun bizə etdiyi dəhşətli əməli gözə görünsün. Ermənicə belə adlandırılan bir hərəkəti onu tanış etmək üçün kifayətdir: Arutin Araratsian rusca Artem Araratski oldu. Vaxtı gələndə onun Ağa Məhəmməd şah Qacarın Gürcüstana gətirilməsi üçün ilk dəfə necə hərəkət etməsi barədə də məlumat olacaq.

Birinci gecə çar Soloman şəhəri dolaşanda birbaş saraya yollandı və nənəsi çariçanı ziyarət etdi ki, burada da böyük şadyanalıq və o qədər qələbəyə görə böyük sevinc var idi. Onu orada çariça Darecanın oğlu, Solomanın dayısı katolikoz Anton qarşıladı, anam da orada idi. Çar İraklinin niyyətini bildirəndə və çar Soloman incəliklə danışanda nədən davam edim: Biz elə şən idik və sonra başımıza belə bir kədər gəldi ki, hamımız birlikdə çox narahat olduq və xeyli vaxt özümüzə gələ bilmədik. Bunu anam tez-tez deyərdi. Buna görə əmin idi ki, gələn düşmən çar İrakliyə heç nə edə bilməyəcək və bunu sübut etmək üçün çar İraklinin sarayı və xəzinəsi daşınmaz idi; O qədər sarayın sərvəti və yaxud xəzinəsi bütövlükdə elə qaldı ki, bir yotta dəyərini (Yotta – ingilis sözüdür, nəyinsə cüzi miqdarı və ya ölçüsüdür – Tərcüməçi) də çalmamışdılar. Çar İrakliyə belə ümid bəsləyirdilər, ona görə də İraklinin qələbə çalan taleyi əbədiyyətin önündə idi!

– "Tərəddüd etmənin daha lazım gəlmədiyi buyurulduğundan – tezcə tərpənib getməliyik". Dərhal çox çətinliklə iki taxt-rəvan hazırladılar. Birinə acı göz yaşlarında boğulan çariça Darecanı oturtdular. Yan-yörəsinə qiymətli əşyaları yerləşdirdilər, yəni pul qoyuldusa, onu da boxçaya qoyub ağzını bağladılar. İkinci taxt-rəvanda tərdən xəstə olan şahzadə Aleksandreni yatağa uzatdılar, anam ata mindi, tərbiyəçi və qulluqçu qadınlar, eləcə də tavad-aznaurlar və atla onların önündə katalikoz Anton Mtiuletiyə yola düşdülər. Gənc oğlan, aznaur Nikoloz Eliozaşvili (Bunun adı sonda da olacaq, bu katolikoz Antonun naziri idi) *(Nazir sözü ərəbcədir, XVII-XVIII əsrlərdə Gürcüstanda təsərrüfat-maliyyə sahəsində məmur. Xəzinə naziri, karxana və yaxud anbar naziri və sair – Tərcüməçi),* bir başçı, eləcə də xidmətçilər piyada gediblər, atları çıxara bilməyiblər, tələsik gediblər.

Suyun darvazasının qapısına yaxınlaşanda və onun böyük kilidini açana kimi, bu zaman erməni əsilli dul qadın özünü yetirdi və narahatlıqla çığırdı: "Çariça, yiyəsizəm, ərsiz, oğul-uşaqsızam və qohum-əqrəbasızam. Sizin mərhəmətinizlə ucalıram. İndi sizin yığışıb getməyinizi eşitdim. Dəli kimi özümü sizə yetirdim. Allah uzun ömür versin sizə, burada məni atmayın və məni qızılbaşların əlinə salmayın, necə olur olsun, məni də özünüzlə aparın". Əşyalarla dolu boxça çox yer tuturdu, ona görə də taxt-rəvanda yer qalmamışdı. Onun bu sözlərindən çariça çox narahat oldu və sonra xidmətçiləri çağırıb dedi: "Bu boxçanı buradan götürün, o qadını onun yerinə oturdun". Birinci tərbiyəçi sakitcə fərəhlə ərk edərək ona bildirdi: "Nə ki qiymətli daş-qaşın, əşyaların və ya pulun var, tamamilə itəcəkdir". – "Mənə nə söyləyirsiniz, stəkanları saxlamaqdan insanı xilas etmək üstün deyilmi? Alın, əgər Allaha inanırsınızsa, orada divarın dibində harasa qoyun, əgər siz apara bilmirsinizsə, kim aparmalıdır". Katolikoz dərhal o boxçanı açdırdı, əşyaları və pulları ora-bura bölüşdürdü, sonra o qadını taxt-rəvana oturtdular, yola düzəldilər. O qadının adı Matua imiş.

Bu zaman yanında iki qulluqçu və üç oğlan bir amazonka gözəl qadın atların belində çariçaya yaxınlaşdı. O gözəl qadın çariçaya dedi: "Mənim hökmdarım, çariçam, sizin köçdüyünüzü eşitdim. Mən sizdən necə əl çəkə bilərəm. Mən ayrılmadan sizinlə olacağam".

Çariça həmin andaca onu səsindən tanıdı və dedi: "Nabat xanım, sənsənmi, mənim əziz Nabat xanımım. Gəl birlikdə olaq və çətinliyə birgə qatlaşaq". Həmin olaylarda onlar daim bir yerdə olmuşdular. Bu qadın Allahverdi bəy Yadigaraşvilinin arvadı, qalalı, ən yaxşı "tatar" ailəsindən olan qadın idi. Sonra çariça ondan soruşdu:

– "Mənim əzizim Nabat xanım. Sənin ərin Allahverdi hardadır?"

– "Mənim ərim və bizim tayfanın bütün kişilərinin hamısı çar İrakli ilə birlikdə Soğanlıq düzündə vətən uğrunda öz qanlarını tökürlər"...

Çariça ağladı, katolikoz Anton da ağladı. Həmin Allahverdinin əhvalatı aşağıda olacaq. Çar İraklinin əhvalatı ki, yadınızdadır. Müşahidəçidən xəbər ki gəldi: Ağa Məhəmməd şah Qacar sabah yığışıb getmək istəyir. Məhz belə də oldu.

Çərşənbə axşamı səhər açılanda özünün ön qarovullarından xəbər gəldi: "Ağa Məhəmməd şah Qacar yığışdı və sürətlə gedir". O, dərhal bir müjdəçi göndərdi və şəhərdə qalanları bu xəbər sevindirdi, lakin yuxarıda dedik ki, budur, həmin Artem (Arutin) Araratski, o səfiri bazar ertəsi gecəsi qaçıran, özünün ələ alınmış erməni kişiləri ilə səfiri müşayiət etdi və əksinə, Teletiyə doğru o elə həmin gecə Kocorinin aşağısında alçaq dağlara apardı. Belə ki, bəli, o, yerləri bəlli şəkildə bilirdi və sonra yenə Tiflisə doğru qayıtdı – indi başqa şeytanlıq və hiyləgərliyə görə. Çar İrakli Tiflis şəhərinə məlik Darçiya Bebutaşvilinin yanına səfiri göndərəndə həm də ismarladı: "Çox ehtiyatlı ol, qaçmasın". Məlik də şəhəri qoruyan adamlara tapşırdı və özü arvad-uşağı ilə yığışdı. Belə ki, cümə günü şəhərin yarısı yığışıb gedəndə, o da şəhərdən çıxdı. Əlbəttə, o da satqın idi. Sonralar ona şeir də qoşdular.

"Haydı, mənim Melikim piniyalıq başla *(Piniya – kiçik həyət iti –Tərcüməçi),*

Qarnını Baqrationların qanı ilə doldur" və sair...

Onun və başqalarının əhvalatları vaxtında olacaq. Katolikoz Anton öz anası çariça ilə yığışıb gedəndə çar Soloman kişiləri şəhərə apardı və qalan şəhərlilərin yığışıb getməsini bəyan etdi: Çar İraklinin əmridir. Şəhərlilər qulaq da asmadılar: Yenə bizi aldadırlar; Çar İrakli tək özü sağ olsun, yoxsa şəhərin fikrini çəkmir.

*(davamı növbəti sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “ახალი გზა” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 MART
2025-Cİ İL
№ 05 (222)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## 2025-Cİ İL APRELİN 1-DƏN ÖLKƏDƏ BİR SIRA DƏYİŞİKLİKLƏR QÜVVƏYƏ MİNƏCƏK




2025-ci il aprelin 1-dən Gürcüstanda siqaret yalnız sadə qablaşdırmada satılacaq. 2024-cü il oktyabrın 1-dən siqaretin standart qablaşdırılması ilə bağlı qaydalar qüvvəyə minib. Bu, bütün siqaret qutularının eyni, sadə dizaynda olması deməkdir. Lakin şirkətlərə vaxt verilib və onlar 2025-ci il aprelin 1-dək mövcud məhsullarını satmağa icazə alıblar. Aprelin 1-dən etibarən isə bütün siqaret qablaşdırmaları eyni olacaq. Daha dəqiq desək, “Tütünə Nəzarət Alyansı”nın sədri ötən il bildirmişdi ki, qablaşdırma pas rəngində olacaq, dizayn isə eyni qalacaq – yalnız markanın və növün adı qutunun üzərində qeyd ediləcək. Yeni qaydalar elektron siqaretlərə aid deyil. Məlumata görə, tütün məhsullarının standart qablaşdırma olmadan satışı və bu qaydanın pozulması 5000 lari məbləğində cərimə ilə nəticələnəcək.

2025-ci il aprelin 1-dən pirotexnika məhsulları ilə bağlı qaydaların pozulmasına görə cərimələr tətbiq ediləcək. Pirotexniki məhsulu onu saxlamağa və ya istifadə etməyə icazəsi olmayan şəxsə satmaq 2000 lari cərimə ilə nəticələnəcək. Həmin məhsulu icazəsi olmayan şəxsin alması 1000 lari cərimə ilə cəzalandırılacaq.

Pirotexnika məhsullarının Gürcüstan qanunvericiliyində müəyyən edilmiş qaydalara zidd istifadəsi isə 2000 lari cərimə ilə nəticələnəcək.

2025-ci il aprelin 1-dən yetkinlik yaşına çatmayanların “112” xidmətinə məqsədsiz zənginə görə cərimə tətbiq ediləcək. Aprelin 1-dən etibarən valideynlərin və ya qanuni nümayəndələrin yetkinlik yaşına çatmayan uşaqların tərbiyəsi və təhsili ilə bağlı öhdəliklərini yerinə yetirməməsinə görə inzibati məsuliyyət müəyyən ediləcək. Bura yetkinlik yaşına çatmayanların “112” fövqəladə xidmətinə əsassız zəng etməsi də daxildir.

Valideynin və ya qanuni nümayəndənin uşağa düzgün nəzarət etməməsi, onun təhsili və rifahı üçün lazım olan şəraiti təmin etməməsi, narkotik maddə istifadəsinə yol verməsi, heyvanlara qarşı qəddar davranışı, ictimai asayişi pozması, alkoqollu içkilər içməsi, tütün məhsulları ilə bağlı qaydaları pozması, soyuq silah gəzdirməsi və ya digər qanunsuz əməllər törətməsi kimi hallar da bu məsuliyyətə daxildir. Bu qaydaların pozulmasına görə valideyn və ya qanuni nümayəndə 100-300 lari məbləğində cərimələnəcək.

2025-ci il aprelin 1-dən Dövlət Xidməti Bürosu ləğv ediləcək. Parlament bu qərarı fevralın 20-də təsdiqləyib.

Ləğv edildikdən sonra büronun funksiyaları və səlahiyyətləri Gürcüstan hökumətinin administrasiyasına veriləcək. Büro əməkdaşları isə bir aylıq maaş miqdarında kompensasiya alacaqlar.

*Mənbə: bpn.ge*

## GUAMA SƏDRLİK AZƏRBAYCANDAN GÜRCÜSTANA KEÇİB

Gürcüstan parlamentinin mətbuat xidmətinin yaydığı məlumata əsasən, martın 3-də Azərbaycanın sədrliyi ilə GUAM Parlament Assambleyasının onlayn iclası keçirilib.

GUAM-a üzv ölkələrinin parlamentarilərinin qatıldıqları tədbir çərçivəsində birgə komitə iclası və büro toplantısı keçirilib, yekun sənədin son variantı təsdiqlənib.

Gürcüstan parlamentinin Hüquq məsələləri komitəsi sədrinin birinci müavini Tornike Çxeişvili çıxışında GUAM-a üzv ölkələr arasında sektoral əməkdaşlığın təşviqinin hər zaman düzgün istiqamətdə atılmış addım olduğunu bildirib. O vurğulayıb ki, bu, ümumi imkanların araşdırılmasına və qarşılıqlı inkişafa töhfə verir.

Çxeişvilinin sözlərinə görə, dialoq, bilik və təcrübə mübadiləsi, eləcə də yeni layihə və təşəbbüslərə üstünlük verilməsi ön planda olmalıdır. O qeyd edib ki, GUAM çərçivəsində ticarət, rabitə, energetika və nəqliyyat sahələrində geniş imkanlar mövcuddur və bu istiqamətdə milli parlamentlər də mühüm rol oynaya bilər.

O, həmçinin son illərdə GUAM regionunun artan çağırışlarla üzləşdiyini, bunun üzv ölkələrin təhlükəsizliyi, suverenliyi və ərazi bütövlüyü üçün təhdid yaratdığını vurğulayıb. Eyni zamanda, regionda sülhün qorunmasının vacibliyi qeyd edilib, Gürcüstanın bu istiqamətdə prioritetləri deputatların diqqətinə çatdırılıb.

Sessiyanın sonunda Assambleyanın yekun sənədi – Kommünike qəbul edilib.

GUAM Parlament Assambleyasına sədrlik bir il müddətə Azərbaycandan Gürcüstana keçib.

## GÜRCÜSTAN MDB-NİN ELMİ-TEXNİKİ İNFORMASİYA SAZİŞİNDƏN ÇIXIB



Gürcüstanın Baş naziri İrakli Kobaxidze yeni sərəncam imzalayıb. Sərəncama əsasən, Gürcüstan MDB-nin Elmi-Texniki İnformasiya üzrə sazişindən çıxıb.

Hökumət saytında dərc olunan sənəddə qeyd olunur ki, Gürcüstanın Xarici İşlər Nazirliyi sazişin ləğvi barədə dərhal prezidentə, parlamentə və MDB-nin rəhbər orqanına məlumat verməyə borcludur.

Qeyd edək ki, Gürcüstan 2009-cu ildə MDB-nin tərkibindən rəsmən çıxıb, lakin bəzi sazişlərdə iştirak etməyə davam edib.

2024-cü ilin oktyabrında MDB-nin Baş katibi Sergey Lebedev bildirib ki, Gürcüstan təşkilat çərçivəsində iqtisadi sahədə münasibətləri tənzimləyən 34 sazişdə iştirakını qoruyub saxlayıb.

## XARİCİ TƏLƏBƏLƏRİN SAYI ÖTƏN İLLƏ MÜQAYİSƏDƏ 20 % ARTIB

Gürcüstanın ali təhsil müəssisələrində xarici tələbələrin sayı 20 % artıb.

Gürcüstan Milli Statistika Xidmətinin məlumatına görə, 2024-2025-ci tədris ilində ali təhsil müəssisələrində xarici tələbələrin sayı 37,1 min təşkil edib. Bu isə ötən ilin analoji dövrü ilə müqayisədə 20,9 faiz çoxdur.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b.
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.